## Mövzu 13. XVI-XVII ƏSRLƏR AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

**PLAN**

1. **Maarif, elm**
2. **Azərbaycan dilinin statusu**
3. **İncəsənət və memarlıq**

**Mədəni həyatın ümumi səciyyəsi**. XVI əsrin başlanğıcında Azərbaycan Səfəvilər dövlətinin yaranması, tarixi Azərbaycan torpaqlarının gerçəkdən ilk dəfə vahid dövlətin tərkibinə qatılması sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi mədəniyyətin inkişafında da geniş perspektivlər açdı. Ölkə daxilində feodal çəkişmələrinə son qoyulması, nisbi sakitliyin təmin edilməsi, xarici iqtisadi əlaqələrin bərpa edilməsi, iqtisadi və mədəni dirçəlişin əsas təminatçısı rolunu oynadılar. Digər tərəfdən, Səfəvi hökmdarlarının, xüsusilə də Şah I İsmayıl və Şah I Abbasın dövrün mükəmməl dini və dünyəvi təhsil görmüş ziyalıları olması, mədəniyyətin bütün sahələrinə xüsusi qayğı və ehtiram göstərmələri XVI-XVII əsrlər Azərbaycan mədəniyyətinin yüksəlişinə mühüm təsir göstərmişdi.

Bütün bunlarla yanaşı XVI-XVII əsrlərdə Azərbaycanda mədəniyyətin, yalnız yüksələn xətt boyu inkişaf etməsini düşünmək yanlışlıq olardı. Belə ki, bu dövrdə Azərbaycanın mədəni inkişaf perspektivləri qarşısında ən böyük əngəllərdən biri müəyyən fasilələrlə bütün XVI əsr və XVII əsrin ilk yarısı boyu davam etmiş Səfəvi-Osmanlı savaşları olmuşdu.

Səfəvi-Osmanlı savaşlarında demək olar ki, bütün hərbi əməliyyatların Azərbaycan ərazisində getməsi, təsərrüfat sahələrinin, yaşayış məskənlərinin, xüsusilə də mədəniyyət mərkəzləri olan Təbriz, Gəncə, Şamaxı, Naxçıvan və s. kimi şəhərlərin dəfələrlə dağıdılması, insan potensialının ciddi itki ilə üzləşməsi, mədəniyyət xadimlərininəsir aparılması, didərcin düşməsi mədəni inkişafın ümumi fonuna olduqca mənfi təsir göstərmişdi. Bəzi Səfəvi hökmdarlarının, Şah I Təhmasibin tövbə fərmanı, Şah II Abbas və Şah Hüseynin mədəniyyətin ayrı-ayrı sahələrinə qoyduqları yasaqlar da inkişaf prosesində izsiz ötüşməmişdi. Bununla belə, qeyd edilən faktlar zəngin tarixi köklərə söykənən Azərbaycan mədəniyyətini inkişaf yolundan sapdıra bilməmiş, XVI-XVII əsrlər xalqımızın tarixində xüsusi mərhələ təşkil etmişdi.

**Azərbaycan türkcəsi.** XVI əsrdə Səfəvilər dövlətinin yaranması ilə Azərbaycan türk dilinin bütün imperatorluq ərazisində yeni siyasi çəki və mədəni dəyər kəsb etməsi mərhələsi başlandı. Tarixi və ədəbi qaynaqların araşdırılması göstərir ki, XVI-XVII əsrlərdə

Azərbaycan türkcəsi Səfəvilər dövlətində dövlət, saray, diplomatiya və ədəbi dil statusu almış oldu. Bu həmin dövrün real tarixi, siyasi, etnik və s. mədəni gerçəklikləri ilə sıx surətdə bağlı idi. Azərbaycan türkcəsinin dövlət dili statusu alması ilk növbədə Səfəvi hökmdarlarının mənşəcə türk olması ilə izah olunmalıdır. Digər tərəfdən Səfəvi imperatorluğunun yaranmasına dirək olan sosial zümrələr və etnosların (əfşar, qacar, bayat, zülqədər, şamlı, rumlu, ustaclı, təkəli, türkman və s.) mənşəcə türk olması və qızılbaş hərəkatının metropoliyasının əsasən tarixi tarixi Azərbaycan torpaqları ilə sinirləri çərçivəsində olmasını xüsusi qeyd etmək lazımdır.

XVI-XVII əsrlərdə türk dilinin yüksəliş dövrünü keçirməsi, fars dilinin ənənəvi ədəbi və dövlət dili statusu kimi öz əzəli qüdrətini itirməsi tarixi faktdır və bu faktı nəinki bir çox Rusiya və Avropa şərqşünasları, həmçinin İran mütəxəssisləri də etiraf etmək zorundadırlar. Məşhur şərqşünas Y.E.Bertelsin bu dövrü fars poeziyasının tənəzzül dövrü adlandırması heç də təsadüfi deyildir. Belə ki, XVI-XVII əsrlərdə çox geniş tarixi-coğrafi arealda Səfəvilər, Osmanlı, Şeybanilər və Böyük Moğollar kimi türk dövlətlərinin çiçəklənməsi fars dilinin tənəzzülünün, türk dilinin yüksəlişinin başlıca səbəblərindən biri və birincisi olmuşdur.

XVI-XVII əsrlərdə Azərbaycan türk dilinin dövlət, saray və diplomatiya dili kimi işlənməsi ədəbi dilimizin daha da zənginləşməsinə, doğma dildə yazanların sayının sürətlə artmasına səbəb oldu. Şah İsmayıl Xətai, Həbibi, Məhəmməd Füzuli, Saib Təbrizi, Qbvsi Təbrizi və s. kimi dahilərin ana dilində yazıb-yaratması Azərbaycan türkcəsinin siyasi və mədəni dəyərinin yüksəlişinə təkan verdi.

XVI-XVII əsrlərə aid çoxsaylı sənədli qaynaqlar Səfəvi hökmdarlarının ölkə daxili rəsmi yazışmalarda və xarici dövlətlərlə diplomatik münasibətlərin qurulmasında Azərbaycan dilindən daha çox istifadə etdiklərini sübut etməkdədir. Şah I İsmayıl və Şah I Təhmasibin Osmanlı hökmdarları Sultan Səlim və Sultan Süleyman Qanuni ilə türk dilində yazışmaları, Şah I Təhmasibin İngiltərə kraliçası Yelizaveta Tüdora, Rusiya çarının Şah I Abbasa, Şah I Səfinin Avstriya və Macarıstan kralı II Ferdinanda, Şah Hüseynin Polşa kralı Fridrix Avqusta türkcə məktubları və s. kimi sənədlər Azərbaycan dilinin dövlət dili səviyəsində geniş istifadə olunmasından xəbər verir.

XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin müxtəlif bölgələrinə səfər etmiş Avropa səyyahları da Azərbaycan dilinin fars dilinə nisbətən daha geniş istifadə edilməsi haqqında maraqlı məlumatlar vermişlər. 1617-ci ildə Səfəvilər dövlətinin ərazisinə daxil olmuş İtaliya səyyahı Pyetro della Valle öz xatirələrində göstərir ki, İranda farscadan daha çox türkcə

danışırlar və gerçəkdən türk dili İranın saray və böyüklərinin dilidir. Səyyahın müşahidələrinə görə, qızılbaş ordusunun əksəriyyəti türklərdir və başqa millətlərdən yığılan qulamlar da öz aralarında türkcə danışırlar, hətta şah da vaxtının çoxunu ordu ilə keçirir və şaha əsgərlərlə türkcə danışmaq daha asandır.

1630-cu ildə İsfahanda şah sarayında olmuş alman alimi Adam Oleari qeyd edir ki, Səfəvi hökmdarı Şah I Səfi və digər dövlət nazirləri rəsmi qəbul zamanı türk dilində danışırdılar.

XVII əsrdə Səfəvi dövlətində olmuş Fransız səyyahı Can Batist Tavernye Səfəvi sarayında türk dilinin əsas olmasını xüsusilə vurğulayır.

XVII əsrin 80-ci illərində İsfahanda şah sarayında olmuş Engelbert Kempfer yazır: «Səfəvilər sülaləsinin ana dili olan türkcə İran sarayında geniş yayılmış bir dildir. Türk dili saraydan tutmuş yüksək rütbəli və mötəbər şəxslərin evlərinə kimi yayılmış və nəticədə elə olmuşdur ki, şahın hörmətini qazanmaq istəyən hər kəs bu dildə danışır. İndi iş o yerə çatmışdır ki, başı bədəni üçün dəyərli olan bir kimsəyə türkcəni bilməmək suç sayılır».

XVI-XVII əsrlərdə fars dilində yazılmış bədii və tarixi əsərlərdə çoxlu sayda türk mənşəli sözlərdən istifadə edilməsi faktı da Azərbaycan türkcəsinin yüksək inkişafından xəbər verir. Qeyd edilən faktlar Şah I Abbasın hakimiyyəti dövründən etibarən Səfəvilər dövlətinin fars dövlətinə çevrilməsi iddiası ilə çıxış edənlərə tutarlı cavabdır.

**Maarif və məktəb.** XVI-XVII əsrlərdə Azərbaycanda maarif sisteminin əsasını ibtidai təhsil müəssisəsi olan məktəb və orta təhsil verən mədrəsələr təşkil edirdi. Bu dövrdə təhsil sistemi din xadimlərinin nəzarəti altında idi. Məktəb və mədrəsələr məscidlərin nəzdində fəaliyyət göstərirdi və adətən vəqf əmlakı hesabına maliyələşirdi. Bəzi məktəblərin xərcləri şah tərəfindən ödənilirdi. Səfəvi hökmdarları yetim, kimsəsiz uşaqlar üçün «Yetimlər evi» adlanan xüsusi məktəblər də açırdılar. Bununla yanaşı Azərbaycan şəhərlərində pullu özəl məktəblər də fəaliyyət göstərirdi. İbtidai məktəblərdə əlifba və Quranla yanaşı Übeyd Zakaninin «Siçan və pişik», Fəridəddin Əttarın «Nəsihətnamə», Sədinin «Gülüstan», Fafizin «Divan»ından parçalar tədris olunurdu. Məktəblərdə tədris aparan müəllimlər mövlana və ya xəlifə adlanırdı. İbtidai təhsil verən məktəbləri bitirən şagirdlər orta təhsil müəssisəsi olan mədrəsələrə daxil ola bilərdilər. Fransız səyyahı Tavernyenin məlumatına əsasən mədrəsələrdəki dərsliklərin əksəriyyəti məşhur Azərbaycan alimi Xacə Nəsirəddin Tusinin əsərlərindən6 ibarət idi. Mədrəsələrdə ilahiyyat fənni əsas yer tutsa da, ictimai və bir sıra təbiət alimlərinin tədrisinə də geniş yer verilirdi. Aristotelin fəlsəfi əsərləri, Mirxondun, Nizaminin, Xaqaninin, Şəms Təbrizinin, Əhvədi Marağainin, Hafizin,

Füzulinin əsərləri də tədris obyekti idi. 1637-ci ildə Şamaxı mədrəsələrindən birində olmuş alman alimi Adam Oleari Azərbaycanda astronomiyanın, fəlsəfənin və riyaziyyatın tədrisinin Avropa təhsili səviyyəsində olduğunu xüsusi olaraq qeyd etmişdir.

XVI-XVII əsrlərdə təhsil şəbəkələrinin demək olar ki, əksəriyyəti Azərbaycan şəhərində fəaliyyət göstərirdi. Osmanlı səyyahı Evliya Çələbinin yazdığına görə XVII əsrin ortalarında Təbrizdə 600 məktəb, 47 mədrəsə, Şamaxıda isə 40 məktəb, 7 mədrəsə işləyirdi. Təbii ki, bu mədrəsələrin əksəriyyəti XVI əsrə qədər açılmış tədris müəssisələri idi. Bununla yanaşı, Səfəvilər dövründə Azərbaycan şəhərlərində çoxlu məktəb və mədrəsələr də açılmışdı ki, bunların içərisində Təbrizdəki «Sadiqiyyə» və «Talıbiyyə» mədrəsələri xüsusilə məşhur idi. XVI-XVII əsrlərdə Azərbaycanda Mövlana Əbdülsəməd, Mirzə Baği, Nəsrullah Xalxani, Mövlana Rəcəbəli Vahidi və s. kimi tanınmış müdərrislər fəaliyyət göstərirdilər.

**Elm.** Səfəvi hökmdarlarının mədəniyyətin bütün sahələrinə xüsusi qayğı ilə yanaşmaları elmin inkişafından da yan keçməmişdi. XVI əsrin əvvəllərində Şah I İsmayıl Marağa rəsədxanasını bərpa etdirmək üçün məşhur riyaziyyatçı və astronom Qiyasəddin Mənsur ibn Əmir Sədrəddin Məhəmmədi Marağaya göndərmişdi. Lazımi hazırlıq işləri görüldükdən sonra rəsədxananın bərpası haqqında əmr verilsə də Şah I İsmayılın ölümündən sonra bu işi yarımçıq qalmışdı. 1611-ci ildə Şah I Abbasın göstərişi ilə tanınmış riyaziyyatçı və astronomlar Cəlaləddin Məhəmməd Yəzdi, Bahaəddin Amili, Əlirza Təbrizi Marağa rəsədxanasının bərpası layihəsini hazırlasalar da, bu planı reallaşdırmaq baş tutmadı.

Bu dövrdə Azərbaycanın riyaziyyat sahəsində görkəmli alimlərindən biri olan Şeyx Abdulla Şəbüstərizadənin riyaziyyata aid bir neçə mükəmməl əsərin müəllifi olmuşdu. Tanınmış Azərbaycan alimlərindən olan Şükrullah Şirvani «Riyazül-ülum» əsərinin bir neçə fəslini məntiq, astoronomiya və hesab fənlərinə həsr etmişdi. XVI əsrin məşhur bilik adamlarından biri də Şah I İsmayılın nəvəsi Bəhram Mirzənin oğlu İbrahim Mirzə (1543-1576) olmuşdur. Xorasan hakimi olan İbrahim Mirzə ilahiyyat, fəlsəfə, tibb, həndəsə, hesab, məntiq, musiqi elmlərinə mükəmməl yiyələnmiş, türk-fars dillərində şerlər, riyaziyyat, nücum və musiqi elmləri sahəsində kitablar yazmışdır.

XVI əsrin sonu-XVII əsrin əvvəllərində fəaliyyət göstərmiş görkəmli Azərbaycan alimlərindən biri də Təbrizli Mirzə Əbdülbağıdır. Fəlsəfə, riyaziyyat, ədəbiyyat, ilahiyyat sahəsində məşhur alimlərdən sayılan Mirzə Əbdülbaği – Qurana təfsir yazmış, bir müddət Hindistanda və Bağdadda elmi fəaliyyətini davam etdirmişdi. Ərdəbildə Şeyx Səfi mədrəsəsində uzun müddət müəllimlik etmiş Kəmaləddin Hüseyn ibn Xacə Ərdəbili 30 cilddən artıq əsərlərin müəllifi olmuş Qurani-Kərimə fars və ərəb dillərində təfsir yazmışdır.

Təbrizin tanınmış şair və alimlərindən olan Füsuni Mahmudbəy Abdulla oğlu nüsum elmi sahəsində xüsusi şöhrət qazanmış, hətta bir müddət Hindistanda Əkbər şahın sarayında münəccim işləmişdir.

XVI-XVII əsrlərdə Azərbaycanda elmin inkişaf etmiş sahələrindən biri də təbabət olmuşdur. Səfəvilər dövründə sarayda mühüm vəzifələrdən olan həkimbaşı ölkənin bütün həkimlərinə rəhbərlik edirdi və onun şəhadətnaməsi olmadan heç kəs həkimlik sənəti ilə məşğul ola bilmirdi. Tibb təhsilində Əbu Əli ibn Sina və Q.Qalileyin əsərlərindən istifadə edilirdi. Mənbələrin məlumatına əsasən bu dövrdə Azərbaycanın hər bir xəstəxanasında əczaxanalar fəaliyyət göstərirdi və təbiblər hətta bəzi cərrahiyyə əməliyyatları da apara bilirdilər. Səfəvilər dövrünün ən məşhur həkimlərindən olan Əbülfəth Təbrizi «Kiçik həkim» adı ilə daha çox tanınmış və Şah II İsmayılın sarayında həkim vəzifəsində işləmişdir.

XVI əsrin görkəmli təbiblərindən biri olan Əbu Talib Təbrizinin Qəzvin şəhərində xüsusi müalicəxanası var idi və o bir müddət Osmanlı dövlətində də fəaliyyət göstərmişdir.

XVII əsrin məşhur tibb alimlərindən olan Naxçıvanlı İbrahim Dəməşqdə yüksək tibb təhsili almış və Dəməşq şəhərinin baş həkimi vəzifəsini tutmuşdu. Dövrünün məşhur həkimlərindən biri olan İmadəddin Mahmudi Şirvan bəylərbəyi Abdulla xan Ustaclının saray həkimi vəzifəsində işləmiş, təbabətə həsr etdiyi əsərlərində dərman hazırlama, yolxucu xəstəliklər və onların müalicə üsulları haqqında qiymətli məsləhətlər vermişdi.

XVI-XVII əsrlərdə Azərbaycanda tarix elmi sahəsində də mühüm inkişaf nəzərə çarpırdı. Xalqın mədəni-tarixi irsinin öyrənilməsi işində «Təzkirə» adlı məcmuələrin əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Şah I Təhmasibin «Təzkireyi Şah Təhmasib», onun qardaşı Sam Mirzənin «Töhfeyi Sami» («Samın Töhfəsi»), Şah I İsmayılın nəvəsi İbrahim Mirzənin «Fərhəngi İbrahim»(«İbrahimin lüğəti») adlı təzkirələrində yüzlərlə görkəmli tarixi şəxsiyyətlər, şairlər, elm-bilik adamları haqqında avtobioqrafik səpgili zəngin məlumatlar verilmişdir.

XVI əsrdə Azərbaycanın istedadlı peşəkar tarixçisi olan Həsən bəy Rumlu(1530-?) uzun müddət Şah I Təhmasibin sarayında fəaliyyət göstərmiş və 10 cildlik «Əhsənüt-təvarix» («Tarixlərin ən yaxşısı») salnaməsini yazmışdır. Salnamənin bizim dövrümüzə qədər gəlib çatmış IX-X cildləri (IX cilddə 1405-1493, X cilddə 1494-1578-ci illərin hadisələri təsvir olunur). Azərbaycan və qonşu ölkələrin XV-XVI əsrlər tarixi haqqında mükəmməl məlumat verən qaynaqlardan biridir.

XVI-XVII əsrlər Azərbaycan tarix elminin ən görkəmli nümayəndələrindən biri də Türkman elindən olan İsgəndər bəy Münşidir (1560-1634). Gəncliyində Səfəvi şahı

Məhəmməd Xudabəndənin sarayında divan katibi (münşi), sonralar Şah I Abbasın tarixçisi olmuş İsgəndər bəyin «Tarix-i aləm arayi Abbasi»(«Abbasın dünyanı bəzəyən tarixi») əsəri XVI əsrin sonu-XVII əsrin əvvəllərində Səfəvilər dövlətinin tarixi haqqında ən zəngin məlumat verən salnamə kimi Azərbaycan tarixşünaslığının şah əsərlərindən biridir.

XVI əsrin əvvəllərində Təbrizdə anadan olmuş Zeynalabdin Əli Əbdi bəyin 1570-ci ildə yazdığı «Təkmilətül əxbar» («Xəbərlərin təkmili») əsər ymumtarix səpgidə yazılmış salnamədir və Şah I Təhmasibin hakimiyyət dövrü haqqında ətraflı məlumatlarla zəngindir.

XVI-XVII əsrlərin peşəkar tarixçilərindən biri olan Fəzli İsfahani ömrünün çox hissəsini qarabağ, Gəncə və Şəkidə keçirmiş, 1617-ci ildə yazdığı 3 cildlik «Əfzələt-təvarix» («Tarixlərin ən ləyaqətlisi») Şah I İsmayıldan başlayaraq Şah I Səfiyə qədər Səfəvi hökmdarlarının hakimiyyəti dövrünə həsr edilmişdir.

XVI-XVII əsrlərdə Azərbaycanda fəlsəfi fikir inkişaf etməklə yanaşı, müəyyən mənada yeni mahiyyət və çalarlar kəsb etməyə başlamışdır. Səfəvi dövlətinin yaranmasında başlıca ideoloci silah rolunu oynayan şiə-qızılbaşlıq məfkurəsi Şah I İsmayılın bütün yaradıcılığı boyu qırmızı xətlə keçir. Şah I İsmayılın divanıqızılbaşlıq dini-fəlsəfi ideologiyasının mahiyyətini parlaq şəkildə nümayiş etdirir. Hakimiyyət uğrunda mübarizə dövründə panteizm, hürufilik, ifrat şiəlik məfkurələrindən geniş faydalanan Şah I İsmayıl hakimiyyətə gəldikdən sonra ifrat fəlsəfi görüşlərdən imtina edərək şiə-qızılbaş ideologiyasının təbliğinə geniş yer vermişdi.

XVI əsrin ən görkəmli fəlsəfi düşüncə sahiblərindən biri olan Məhəmməd Füzulinin başlıca fəlsəfi əsəri «Mətlə ül-etiqad» traktatıdır. Dahi mütəfəkkir bu əsərində ilahiyyat məsələləri ilə yanaşı qədim yunan və Şərq mütəfəkkirlərinin baxışlarının qısa şərhini vermiş, elmin mahiyyəti, idrak prosesində elmiq məqsəd və vəzifələri, dünyanın başlanğıcı və mahiyyəti, yaradanın mövcudluğu, peyğəmbərlik və s. fundamental fəlsəfi anlayış ları araşdırmış, elmlərin təsnifatını vermişdir.

XVI əsrin məşhur rəssamı, alim və mütəfəkkiri Sadiq bəy Əfşar(1533-1612)məşhur estetik nəzəriyyəsini irəli sürərək incəsənəti gerçəkliyin inkası kimi nəzərdən keçirmiş, forma və məzmunun vəhdəti məsələsini qoymuş, məzmunun formadan üstün olduğunu göstərmiş, nəzəriyyə ilə təcrübənin vəhdəti fikrini təbliğ etmişdir.

XVII əsrdə Azərbaycanın peşəkar filosofu olan Yusif Məhəmmədcan oğlu Qarabaği dünyanın dərk olunmasında idrak nəzəriyyəsinin başlıca rol oynadığını qeyd etmişdir. Müəllifin fəlsəfə, məntiq, hüquq, astronomiya problemlərinə həsr edilmiş əsərləri içərisində

«Bölünməz hissəciyin izahına dair» və «Gizli olan haqda traktat»tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilir.

XVII əsr Azərbaycanın fəlsəfi fikir tarixində özünəməzsus xidmətləri olan mütəfəkkirlərdən biri də bir müddət Şah II Abbasın sarayında məlik-üş-şüəra vəzifəsini tutmuş Saib Təbrizidir. Yaxın və Orta Şərq xalqlarının fəlsəfi irsinə yaxından bələd olan Saib Təbrizi panteist, bidətçi təlimlərə daha çox meyilli olmuş, idrak məsələlərinə, dünyanın dərk olunmasında elmin və təcrübənin vəhdətinə xüsusi diqqət yetirmişdir. Böyük mütəfəkkirin əxlaq və estetik görüşləri Sadiq bəy Əfşarın estetik baxışları ilə daha çox səsləşir.

**Ədəbiyyat.** Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanda bədii söz sənəti öz inkişafının mahiyyətcə yeni mərhələsinə qədəm qoymuşdu. Bu ilk növbədə Səfəvi hökmdarlarının Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmaları və özlərinin də bu dildə yazıb yaratmaları, bu dildə yazan şairlər xüsusi qayğı ilə yanaşmaları ilə bilavsitə bağlı idi. Bu dövrdə ədəbi ənənələri zəngin tarixi keçmişə söykənən ədəbi irsin inkişafında yeni mərhələni təşkil edirdi. XV əsrdə Ağqoyunlu sarayında fəaliyyət göstərən ədəbi məclis Şah I İsmayılın xüsusi qayğısı ilə əhatə olunmuşdu. Bu ədəbi məclisdə Sürurі, Şahi, Matəmi, Tüfkyli, Qasımi kimi tanınmış şairlər iştirak edirdi və məclisə «məliküş-şüəra» Həbibi rəhbərlik edirdi.

XV əsrin sonu-XVI əsrin ilk rübündə yaşamış Sürurі istedadlı şair və hürufilik fəlsəfi görüşlərinin təbliğatçısı olmuş, məhəbbət mövzusunda qələmə aldığı qəzəllərə Füzulinin yaradıcılığına mühüm təsir göstərmişdi. Sultan Səlimin Təbrizi işğal etməsindən sonra Türkiyəyə getməyə məcbur olmuş Sürufi ədəbi fəaliyyətini orada davam etdirmişdi.

Şah I İsmayılın sarayında təşkil edilmiş ədəbi məclisin fəal iştirakçılarından biri olan Tüfeyli öz yaradıcılığında hürufilik təlimini şiə-qızılbaş ideologiyası ilə uzlaşdırmağa cəhd göstərimiş, şiəlik təriqətini əsaslandırmış, imam Əli ibn Əbutalib, Şah I İsmayıl və Şeyx Səfiəddin İshaqın şəninə tərifnamələr yazmışdır.

Şah İsmayıl Xətai XVI əsr Azərbaycan xalqının tarixində görkəmli dövlət xadimi, məşhur sərkərdə olmaqla yanaşı həm də incə zövqə, böyük təbə, zəngin ədəbi irsə malik istedadlı şair kimi mühüm yer tutur. Şairin ədəbi irsi Azərbaycan dilində yazılmış «Divan»dan, ibrətamiz mənzumələrdən, lirik qoşmalardan, «Nəsihətnamə» adlı məsnəvi və «Dəhnamə» poemasından ibarətdir. Xətai əsərlərini əruz və heca vəznlərində yazmış, yaradıcılığında Azərbaycan folklorundan geniş istifadə etmiş, qısa müddət yaşamasına, ömrünün çox hissəsini dövlət işlərinə həsr etməsinə baxmayaraq, Azərbaycan, ərəb və fars

dillərində mükəmməl bədii sənət nümunələri yaratmışdır. Dünyagörüşü etibarən panteist şair olan Xətainin yaradıcılığında sufilik, hürufilik ideyalarının izləri açıq görünür. Şair öz poeziyasını insan mənəviyyatını buxovlayan ehkamlara qarşı üsyan, həyat eşqi, nikbinlik üzərində kökləmişdir.

XV əsr Azərbaycan və dünya ədəbiyyatının ən görkəmli nümayəndəsi Məhəmməd Füzuli(1498-1556) olmuşdur. Füzuli XIII əsrdə Azərbaycandan Bağdada köçürülmüş Bayat qoluna məxsus olmuşdur və bütün yaradıcılığı bu şəhərlə bağlı olmuşdur. Ərəb, fars və türk dillərinin kamil bilicisi olan Füzulinin yaradıcılığında Azərbaycan türkcəsi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Şairin Azərbaycan, ərəb və fars dillərində divani ilə yanaşı 13 əsəri məlumdur. Azərbaycan və dünya ədəbiyyatının şah əsərlərindən olan «Leyli və Məcnun» poemasını şair azırbaycan dilində yazmış və 1534-cü ildə Bağdadı tutmuş Sultan Süleyman Qanuniyə təqdim etmişdi. M.Füzuli Şah I İsmayılın fəaliyyətini mədh etmiş, böyük əsərlərindən olan «Bəngü-Badə»ni ona həsr etmişdir. Dövrünün görkəmli alimlərindən sayılan M.Füzuli musiqi, təbabət, astronomiya, fəlsəfə ilə dərindən maraqlanmış, «Mətlə-ül etiqad» adlı fəlsəfi risaləsində Şərq ölkələri ilə yanaşı Avropa fəlsəfəsinin tanınmış nümayəndələri – Heraklit, Platon, Aristotel, Pifaqor və başqalarının dünyagörüşünü geniş təhlil etmişdir.

XVII əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri Saib Təbrizi(1601-1676) olmuşdur.Şah I Abbasın dövründə isfahana köçürülmüş Saib bir müddət Əfqanıstan, Ərəb ölkələri və Kiçik Asiyaya səyahət etmiş, 6 il Hindistanda yaşamışdır. Şah II Abbas (1642-1666) tərəfindən Səfəvi sarayına dəvət almış şair Məliküm-şüəra adını almışdır. Azərbaycan və fars dillərində şerlər yazan Saib Təbrizinin zəngin bədii irsi 120 min beytdən ibarət 7 divan, «Qəndəhərnamə», «Mahmud və Ayaz» məsnəviləri, «Səfineyi Saib» məcmuəsi ilə məşhurdur. Klassik qəzəl canrında yeni üslub yaratdığı üçün Qəzəl tacidari adını almış Saib Təbrizinin yaradıcılığı Yaxın Şərq və Hindistan poeziyasının inkişafına böyük təsir göstərmişdir.

XVI əsrin II yarısı – XVII əsrin əvvəllərində yaşamış məşhur şairlərdən olan Məhəmməd Əmani Şah I Təhmasib və Şah I Abbasın bir çox yürüşlərində iştirak etmiş, Azərbaycan və fars dillərində şerlər yazmış, bədii yaradıcılığının bəzi nümunələrini Səfəvi şahlarının hərbi yürüşlərinə həsr etmişdir.

Zəngin bədii irsə malik XVI-XVII əsr Azərbaycan şairlərindən biri də Məsihidir (1580-1655). Yüz min beytdən ibarət məsnəvi və üç poemanın müəllifi olan şairin bizim dövrümüzə yalnız «Vərqa və Gülşa» poeması, az sayda şerləri gəlib çatmışdır. Azərbaycan

dilində, məsnəvi formasında yazılmış «Vərqa və Gülşa»poemasının bir nüsxəsi hazırda Britaniya muzeyində saxlanılır.

XVII əsrin ortalarında yaşamış Azərbaycan şairlərindən biri də Qbvsi Təbrizidir. İsfahanda mükəmməl təhsil alan şair bir müddət Qarabağ bəylərbəyi Uğurlu xanın sarayında yaşamış, Azərbaycan və fars dillərində divanı olmuşdur. Q.Təbrizinin divanının bir nüsxəsi Gürcüstanda, digəri isə Britaniya muzeyində saxlanılır.

XVII əsrin tanınmış ədəbi simalarından olan Tərzi Əfşar Urmiyada anadan olsa da, gənclik dövrünü İsfahanda keçirmiş, orada mükəmməl təhsil almış, ərəb, fars və türk dillərini dərindən öyrənmişdir. Orta Asiya, İraq, Hindistan kimi ölkələrdə səyahətdə olmuş, üç dildə əsərlər yazmışdır. Tərzi Əfşarın «Şikayətnamə» əsəri M.Füzulinin eyni adlı əsəri ruhunda yazılmışdır.

**Aşıq sənəti. Dastan ədəbiyyatı.** XVI-XVII əsrlər Azərbaycanda ozan-aşıq sənətinin inkişafında mühüm mərhələni təşkil edir. Bu dövrün zəngin tarixi hadisələri dastan ədəbiyyatının yeni nümunələrinin yaranmasına da həlledici təsir göstərmişdir.

XVI əsrdə xalq şerinin, aşıq ədəbiyyatının ən parlaq simalarından biri Aşıq Qurbani idi. Xalqın arzu və istəklərinin aşıq ədəbiyyatında tərənnümçüsü olan Aşıq Qurbani Səfəvi sarayının vəzirlərindən birinin qəzəbinə tuş gəldiyi üçün İrana sürgün edilsə də, Şah I İsmayıl tərəfindən əhv edilmiş, Səfəvi hökmdarının öz yaradıcılığında vəsf etmişdir.

XVII əsrin məşhur aşığı olan Abbas Tufarqanlı Təbriz yaxınlığındakı Tufarqanlı kəndində doğulmuş, xalq yaradıcılığının qoşma, təcnis, gəraylı, ustadnamə üslublarında misilsiz sənət əsərləri yaratmışdır. Aşığın həyat yolu sonralar xalq dastanının mövzusuna çevrilmiş, «Abbas və Gülgəz» dastanı Abbas Tufarqanlının həyat və sənət yaradıcılığına həsr edilmişdir.

XVII əsrdə yaşamış məşhur Azərbaycan xalq şairlərindən biri də Sarı Aşıqdır. Xalq yaradıcılığının mahir bilicilərindən olan Sarı Aşıq gözəl bayatı, qoşma və mənzum tapmacalar müəllifi kimi tanınmış, cinasın ustası sayılmışdır. Yüksək mənəvi-əxlaqi görüşlərinə, xalqın haqq-ədalət səsinin carçısına çevrildiyinə görə el arasında daha çox haqq aşığı çağırılmışdır.

XVI-XVI əsrlərdə «Şah İsmayıl», «Aşıq Qərib», «Abbas və Gülgəz», «Əsli və Kərəm», «Koroğlu» və s. dastanların formalaşması başa çatmışdır. Bu dövrdə təşəkkül tapmış Azərbaycan dastanları xalqımızın mənəvi dünyası ilə yanaşı real tarixi gerçəkliklərin, tərənnümü baxımından da diqqətə layiqdir. Bu baxımdan xüsusi əhəmiyyət kəsb edən dastanlardan biri «Koroğlu» eposudur.

XVI əsrin sonu-XVII əsrin əvvəllərində Şərqi Anadolu və Azərbaycanda geniş yayılmış Cəlalilər hərəkatı «Koroğlu» dastanının əsas sücet xəttini təşkil edir. Dastan qəhrəmanlarından Koroğlu, Dəli Həsən, Gizir oğlu Mustafa bəy, Kosa Səfər, Tanrıtanımaz və başqalarının real tarixi şəxsiyyətlər olması bir çox tədqiqatçılar tərəfindən də təsdiq edilir. 1590-cı il İstanbul barışığına əsasən Osmanlı işğalı altına düşmüş Azərbaycan ərazilərində geniş inkişaf tapmış Calali hərəkatını Şah I Abbas da dəstəkləmiş, onların qüvvəsindən Osmanlı işğalına qarşı mübarizədə istifadə etməyə cəhd etmişdir. Azərbaycan mühitində təşəkkül tapmış «Koroğlu» eposu Mərkəzi Asiya, Gürcüstan və s. ölkələrdə də geniş yayılmış, dastan qəhrəmanı olan Koroğlu xalqın arzu və istəklərinin müdafiəçisi, tərənnümçüsü simvoluna çevrilmişdir.

Xalqımızın bədii təxəyyülü və real tarixi gerçəkliklərini əks etdirən eposlardan biri də «Şah İsmayıl» dastanıdır. Bu epos Şah I təhmasibə qarşı sui-qəsddə ittiham edilərək zindana salınmış və uzun müddət həbsdə qalmış, atası Təhmasibin ölümündən sonra Səfəvi taxtına çıxmış Şah II İsmayılın (1576-1577) həyatından bəhs edir. Eposun qəhrəmanı İsmayıl zalım və hiyləgər atası Şah Zülala qarşı qoyulmuş, kişi xislətli Ərəbzəngi ilə qarşılaşmışdır. «Şah İsmayıl» dastanı qəhrəmanlıq və məhəbbət motivləri əsasında tərtib olunmuşdur.

XVI-XVII əsrlər Azərbaycan dastanları içərisində romantik məhəbbət eposu olan «Aşıq Qərib» mühüm yer tutur. Dastanda Qərib və Şahsənəmin məhəbbət macarası ilə yanaşı Səfəvi-Osmanlı savaşları nəticəsində Azərbaycanın və Təbriz şəhərinin təlatümlü günlərinin bədii təsviri də əksini tapmışdır. Bu dastanın Azərbaycan variantı ilə bərabər türkmən, türk və s. variantları da mövcuddur.

Məhəbbət mövzusunda təşəkkül tapmış dastanlar sırasında «Əsli və Kərəm» eposu xüsusilə məşhurdur. Dastanda Gəncə xanı Ziyadın oğlu Kərəm və Qara keşişin qızı Əsli arasındakı müqəddəs məhəbbətin qarşısında dini əqidə ayrılığının əngələ çevrilməsi əsas sücet xəttini təşkil edir. Müxtəlif məkrli üsullardan istifadə edən Qara keşiş Əsli və Kərəmin qovuşmasının qarşısını almaqla ülvi məhəbbət carçılarının məhvinə nail olur. Bu dövrdə yaranmış Azərbaycan dastanları özlərinin yüksək mənəvi-əxlaqi dəyərləri, xalq yaradıcılığının əsrarəngiz şeriyyat üslubu ilə ədəbi irsimizin nadir inciləri kimi bu gün də sevilə-sevilə oxunur, gənc nəslin ülvi hisslər, vətənə məhəbbət ruhunda tərbiyə olunmasında əvəzsiz rol oynayır.

## İncəsənət.

**Təsviri sənət. Təbriz miniatür məktəbi.** XVI-XVII əsrlərdə Azərbaycanda rəssamlıq sənəti öz inkişaf tarixinin zirvəsinə çatmışdı. Azərbaycanda XIII əsrdən etibarən inkişaf zəmini tapan, bədii üsullarının xüsusi incəliyi ilə seçilən, əsasən əlyazma kitablarının bəzədilməsi sənəti kimi, miniatür rəssamlığı XVI əsrdə Təbriz saray kitabxanası nəzdində fəaliyyətini daha da genişləndirmişdi. Əsası XV əsrdə, Ağqoyunlu sarayında qoyulmuş Təbriz saray kitabxanası elm, təsviri sənət mərkəzi kimi XVI əsrdə bütün Şərqdə məşhur idi. Elm, mədəniyyət və incəsənətin inkişafına xüsusi qayğı ilə yanaşan Şah I İsmayıl və Şah I Təhmasibin Təbriz saray kitabxanasını himayə etməsi onun inkişafına yeni bir təkan vermişdi. Şah I İsmayıl mahir Bağdad, Herat, Şiraz, İsfahan rəssamlarının Təbrizə cəlb olunmasının, onların yaradıcılığı üçün bütün şəraitin yaradılmasının əsas təşəbbüskarı olmuşdur. 1522-ci ildə Şah I İsmayılın Herat boyakarlıq məktəbinin ən böyük ustadı Kəmaləddin Behzadi Təbriz saray kitabxanasının rəisi təyin etməsi Təbriz miniatür məktəbinin inkişafına güclü təsir göstərmişdi. Qaynaqların məlumatına əsasən bu təyinata qədər Təbriz saray kitabxanasına dahi Azərbaycan rəssamı Sultan Məhəmməd rəhbərlik edirdi və 1535-ci ildə Kəmaləddin Behzadın ölümündən sonra o, yenidən bu vəzifəyə qaytarılmışdı. Təbriz miniatür məktəbinin fəaliyyətinin ən məhsuldar dövrü XVI əsrin 20-50-ci illərinə təsadüf edir. Bu dövrdə Təbriz miniatür məktəbində Sultan Məhəmməd, Sadiq bəy Əfşar, Seyid Əli Təbrizi, Müzəffər Əli Təbrizi və s. məşhur rəssamlar fəaliyyət göstərirdilər. XVI əsrdə Təbriz miniatür məktəbinin zəngin yaradıcılığında 1517-1537-ci illərdə yaradılmış Nizami Gəncəvinin «Xəmsə»si ilə çəkilmiş miniatürlər, nəinki Yaxın və Orta Şərq, həmçinin dünya rəssamlıq sənətinin şah əsərləri, nadir inciləri sırasında əzəmətli yer tutur. Şah I İsmayılın göstərişi ilə 1517-ci ildə Təbriz kitabxanasının rəssamları şahın oğlu Təhmasib üçün Firdovsinin «Şahnamə»sinin yeni əlyazmasını hazırlamağa başladılar. 20 illik gərgin əməyin nəticəsində 60 min beytlik mətn və 258 miniatür rəsmdən ibarət olan və «Şahnameyi Təhmasib» adlanan misilsiz sənət əsəri yaradıldı. Əsərin bədii baxımdan daha oricinal və qiymətli miniatürlər Sultan Məhəmməd, Kəmaləddin Behzad, Ağa Mirək, Dust Məhəmməd, Mir Müsəvvir, Mirzə Əli və Mir Seyid Əli tərəfindən çəkilmişdir. Hazırda bu möhtəşəm sənət əsəri ABŞ-da A.Hoqtonun şəxsi kolleksiyasında saxlanılır.

1539-1543-cü illərdə Şah I Təhmasibin tapşırığı ilə Təbriz kitabxanasında N. Gəncəvinin «Xəmsə»sinin yeni nüsxəsi tərtib olundu. Yüksək bədii zövqlə hazırlanmış, iriölçülü 14 miniatürdən ibarət olan bu nüsxə Şərqdə kitab sənətinin nadir incisi, miniatür

sənətinin kamil, misilsiz nümunəsidir. Əlyazmanın ən yaxşı nümunələri («Xosrovun qismən Şirini seyr etməsi», «Bəhram Gur şir ovundv» və s.) Sultan Məhəmmədə məxsusdur.

Təbriz rəssamları, yalnız kitab miniatürləri çəkməklə kifayətlənməyib, həmçinin sarayları, məscidlərin divar, tavan və qapılarının bədii tərtibatının işlənilməsində, parça və xalçalar üçün naxış və rəsmlərin hazırlanmasında da yaxından iştirak edirdilər.

XVI əsrin 40-50-ci illərində Səfəvi dövlətində baş vermiş gərgin daxili prosseslər, Səfəvi-Osmanlı savaşları Təbriz saray kitabxanasının fəaliyyətində də təsirsiz ötüşməmişdi. Şah I Təhmasibin 1556-cı ildə verdiyi tövbə fərmanı nəticəsində rəssamlıq, xəttatlıq sənətinə də ağır zərbə dəydi. Təbriz saray kitabxanası bağlandı, kitabxanada çalışan dövrün məşhur rəssamları işsiz, dövlət qayğısından kənarda qaldı. Tövbə fərmanı Təbriz miniatür məktəbinin fəaliyyətinə ağar zərbə vursa da, bu məktəbin böyük, zəngin ənənəsini tam aradan çıxarda bilmədi. Təbriz rəssamlıq sənətinin təsiri altında XVI əsrin ilk yarısında Şiraz məktəbi, son rübündə Qəzvin, Məşhəd, XVII əsrin əvvəllərində İsfahan miniatür məktəbləri formalaşdı. Təbriz rəssamlıq sənəti Hindistanda və Osmanlı dövlətində də miniatür sənətinin inkişafına da mühüm təsir göstərmişdi. Təhmasibin Tövbə fərmanından sonra Təbriz rəssamlarının bir çoxu Hindistana gedərək Böyük Moğol hökmdarlarının sarayında işləmişdilər. Hindistanda Moğol miniatür məktəbinin inkişafında ustad Mir Müsəvvirin oğlu Mir Seyidəlinin xidmətləri şəksizdir.

XVI əsrin son rübündə Osmanlı ordusu Təbrizi işğal edərkən Azərbaycan rəssamlarının bir çoxunu İstanbula aparmışdılar. Bu dövrdə İstanbul saray emalatxanasında Azərbaycan rəssamları Vəlican və Şahqulunun başçılığı altında onlarla rəssam fəaliyyət göstərirdilər. Türkiyə şərqşünasları özləri də etiraf edirlir ki, həmin dövrdə İstanbul rəssamlıq məktəbi Təbriz incəsənətinin güclü təsiri altına düşmüşdü.

XVII əsrdə Şah I Abbas və Şah II Abbasın rəssamlıq sənətinə xüsusi qayğı göstərməsinə baxmayaraq miniatür sənətinin XVI əsrdəki inkişaf səviyyəsini bərpa etmək mümkün olmamışdı.

**Memarlıq.** XVI-XVII əsrlərdə Azərbaycan memarlıq sənəti özünün zəngin tarixi davam etdirirdi. XVI əsrin əvvəllərində mərkəzləşdirilmiş Səfəvilər dövlətinin yaranması Azərbaycan memarlığının inkişafı üçün də mühüm əhəmiyyət kəsb edirdi. İslamın aparıcı şüur forması olması Azərbaycan şəhərlərinin memarlıq üslubunda da öz əksini tapmışdı. Şəhərlərin əksəriyyətində dini təyinatlı binalardan- məscidlər, camelər, türbələr, daxili və xarici ticarətin inkişafı tələbatından doğmuş karvansaralar, müxtəlif məqsədli ictimai binalar saraylar, hamamlar, qalalar və s. kimi memarlıq kompleksləri nadir sənət incilərinə

çevrilmişdi. Bu dövrdə Azərbaycan memarlığının aparıcı qollarını Təbriz və Şirvan-Abşeron memarlıq məktəbləri təşkil edirdi. Səfəvi hökmdarları dini ideoloci mərkəz kimi Ərdəbil şəhərinin memarlıq baxımından tərtibatına xüsusi diqqət və qayğı ilə yanaşırdılar.Bu məqsədlə Şah I İsmayıl Ərdəbil şəhərində yüksək bədii üslubu ilə seçilən «Cənnət saray» kompleksini tikdirmiş, Şah I Təhmasibin göstərişi ilə Şeyx Səfi məqbərəsində əsaslı tikinti işləri aparılmış, Şah I Abbasın dövründə məqbərənin nəzdində xeyriyə məqsədi ilə nəhəng mətbəx kompleksi salınmışdı. Aparılmış tikintilər, yenidənqurmalar nəticəsində Ərdəbil, Şeyx Səfi məqbərəsi kompleksi dövrün ən iri və nadir dini-xatirə səciyyəli abidəsinə çevrilmişdi.

Bu dövrün xatirə məqsədli memarlıq abidələri içərisində Ərdəbil yaxınlığında Şeyx Cəbrayıl türbəsini, Gəncədəki «İmamzadə» kompleksini, Şeyx Mahmud Şihabəddinin Əhər şəhərində tikilmiş türbəsini, 1554-cü ildə Şah I Təhmasibin göstərişi ilə Qusarın Həzrə kəndində tikilmiş Şeyx Cüneyd türbəsini, Mərdəkanda Pir türbəsini, Şamaxının Kələxana kəndində salınmış məqbərələr kompleksini (burada tikilmiş 9 məqbərədən 8-i indiyədək qalır) xüsusi ilə qeyd etmək lazımdır.

Səfəvilər dövründə şəhərsalma işlərinə də diqqət verilirdi. 1616-cı ildə Şah I Abbasın əmri ilə yeni Gəncə şəhərinin əsası qoyulmuş, şəhərdə məscid, karvansara, bazar və s. kimi çoxlu ictimai binalar tikilmişdi. XVI əsrdə Bakı şəhərində aparılan memarlıq işləri nəticəsində şəhərin mərkəzi Şirvanşahlar saray kompleksindən Cümə məscidi və Qız qalası arasındakı karvansara və bazara köçürülmüşdü. 1585-ci ildə memar Əmirşah tərəfindən inşa edilmiş Bakı qalasının Şərq darvazası nadir sənət əsərlərindəndir. XVI-XVII əsrlərdə Təbriz, Şamaxı, Bakı, Ərdəbil, Gəncə, Naxçıvan, Ordubad şəhərlərində bir sıra məscid, bazar, hamam, karvansara, körpü və s. ictimai binalar tikilmişdi. Bütün bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, uzun müddət davam etmiş Səfəvi-Osmanlı savaşları Azərbaycan memarlığına ciddi zərbə vurmuşdu. Belə ki, hərbi əməliyyatların Azərbaycan ərazisində getməsi nadir memarlıq abidələrinin dağıdılmasına səbəb olmuş, memarlığın inkişafını ləngitmişdi. Digər tərəfdən Osmanlı hökmdarlarının çoxlu sayda mahir Azərbaycan sənətkarlarını, o cümlədən memarlarını İstanbula aparması da təsirsiz ötüşməmişdi.

**Musiqi.** Orta əsrlər dövründə Azərbaycan musiqi sənəti öz inkişafının zirvəsinə XIII-XV əsrlərdə çatmışdı. Səfəvilər dövründə şiəliyin rəsmi dövlət dini elan edilməsi və ruhanilərin, eləcə də Şah I Təhmasib və Şah Hüseynin musiqinin qadağan edilməsi haqqında fitva və fərmanlarına baxmayaraq musiqi mədəniyyəti inkişaf edirdi. Bu dövr Azərbaycan musiqisini xarakter, məram və məqsəd baxımından dini, hərbi, saray və xalq musiqisi kimi

müxtəlif növlərə bölmək olar. Azərbaycanın Təbriz, Ərdəbil, Gəncə, Bakı, Şamaxı, İrəvan və s. şəhərlərində şah və hakimlərin saraylarında musiqiçilər dəstəsi fəaliyyət göstərirdi. Musiqiçilər və xanəndələr xüsusi təşkilatlarda birləşir, bu təşkilatlara çalğıçıbaşı rəhbərlik edir və onların fəaliyyəti dövlətin nəzarəti altına alınırdı. Qaynaqların məlumatına görə musiqiçilər hətta dövlətə vergi də verirdilər. Bəzi Səfəvi hökmdarları musiqinin inkişafına xüsusi diqqət ayırmaqla yanaşı özləri də musiqi elmini mükəmməl bilir, hətta musiqi bəstələmək, bir çox alətlərdə ifa etməyi də bacarırdılar. İngilis musiqişünası Farmerin məlumatına əsasən çahartar musiqi alətini Şah I İsmayılın atası Şeyx Heydər ixtira etmişdir. Qaynaqların şəhadətinə əsasən Şah I İsmayıl Təbrizin «Həştbehişt» sarayında musiqi məclisləri təşkil etdirir, Təbriz meydanında musiqinin müşayiəti altında qopuq oyunu keçirirdi. Şah I İsmayılın nəvəsi İbrahim Mirzə musiqi elmini mükəmməl mənimsəmiş, onun bəstələdiyi mahnılar xalq arasında geniş yayılmışcı. İsgəndər bəy Münşinin yazdığına görə Şah I Abbası musiqişünaslıqda dövrün görkəmli adamı adlandırmış, onun bəstələdiyi mahnıların musiqiçilər arasında yüksək qiymətləndirildiyini qeyd etmişdir.

Səfəvilər dövründə Azərbaycanda dini musiqiçilərə xüsusi önəm verilirdi. Məlahətli səsi olan müğənnilər Quranı gözəl avazla oxuyan şəxslər «Hafiz» adlanırdılar. Dini məramlı musiqilər arasında Quran ayinlərinin ifasına xüsusi diqqət verilir, dini mərasimlərlə təbil, şeypur, sinc kimi musiqi alətlərindən istifadə olunurdu.

XVI-XVII əsrlərdə Azərbaycanda hərbi xarakterli musiqilər dövlət səviyyəsində himayə olunurdu. Bu dövrdə Səfəvi hökmdarlarının mütəmadi hərbi yürüş, səfər və savaşları hərbi musiqinin müşayiəti altında həyata keçirilirdi. Hərbi musiqiçilərin ifasında çalınan cəng havaları, hərbi marşlar ordunun döyüş ruhunun, mübarizə əzminin yüksəlişinə xidmət göstərirdi. Bununla yanaşı döyüş əmrləri, komanda və göstərişlərin verilməsi də musiqi alətlərinin sədası ilə çatdırılırdı.

Səfəvi dövlətində səyahətdə olmuş Avropa səfirlərinin, səyyah və missionerlərinin verdiyi məlumatlara əsasən Azərbaycanda xalq bayramları, el şənlikləri müxtəlif ayin və mərasimlər belə musiqinin müşayiəti altında keçirilirdi. Novruz bayramında yeni ilin gəlişini bilidirmək üçün şəhərlərdə qara ney çalınır, tədillər döyülürdü. Azərbaycan şəhərlərində günəşin doğub batmasını da qara ney, zurna və təbillər vasitəsilə elan edirdilər. Azərbaycana gələn, xarici qonaqları şəhər darvazalarında musiqi sədaları altında qarşılayırdılar. Alman səyyahı Adam Oleari 1636-cı ildə Ərdəbildə təbil və tütək, Şamaxı şəhərində isə qara ney, tütək və təbil çala-çala qarşılamışdılar.

Səfəvi şahlarının, bəylərbəyilərin saraylarında musiqiçilər dəstəsi fəaliyyət göstərirdilər. Saray musiqisi bir çox hallarda əyləncə xarakteri daşısa da, peşəkar musiqiyə də geniş yer verilirdi. Peşəkar musiqiçilər mahnı bəstələməklə yanaşı, musiqi alətlərinin də məşhur ifaçıları olduqları üçün ustad sənətkarlar adlanırdılar. Şənliklər və ziyafət məclislərində ud, kamança, zurna, tənbur, qaval, dümbək, kanon və s. alətlərindən geniş istifadə olunurdu. Dövrün musiqiçiləri arasında Əhməd Qəzvini, HafizLələ Təbrizi(müğənnilər), Mirzə Məhərrəm, Məhəmməd Mömin (kamança və ud çalan), şahsuvar, Sultan, Mirzə Həsən (tənbur çalan), Məsum (kamança), Hafiz məclisi (kanon) və başqaları daha məşhur idilər. Şah I Təhmasibin 1556-cı ildə verdiyi tövbə fərmanı ilə musiqi qadağan edilsə də onun inkişafının qarşısını almaq mümkün olmamışdı. Belə ki, bu yasaq hərbi, dini xarakterli musiqilərə şamil edilməmişdi. Digər tərəfdən Şah II İsmayılın 1578-ci ildə, atasının bu qadağanı ləğv etməsi ilə musiqi sənətinə yenidən geniş meydan verilmişdi. Təsadüfi deyildir ki, XVII əsrin ortalarında Azərbaycanda olmuş fransız səyyahı Can Şarden musiqi haqqında geniş məlumat verirdi. Çox maraqlıdır ki, C.Şarden İrəvan bəylərbəyinin sarayında seyr etdiyi musiqili üç pərdəli tamaşanı « Şərqin opera» sı adlandırmışdı.

XVI-XVII əsrlərdə Azərbaycanda aşıq musiqisi də geniş yayılmışdı. Aşıq mahnıları geniş xalq kütlələrinin real həyat tərzini, arzu və istəklərini tərənnüm edirdi. Abbas Tufarqanlı, Sarı Aşıq XVII əsr Azərbaycan aşıq sənətinin dahi nümayəndələri idilər.

**Dekorativ tətbiqi sənətlər.** XVI-XVII əsrlərdə Azərbaycanda dekorativ tətbiqi sənətin bədii parça və tikmələr, xalçaçılıq, bədii metal, daş üzərində oymalar, ağac üzərində oymalar, keramika kimi növləri də yüksək inkişaf səviyyəsinə çatmışdı. Səfəvilər dövründə Azərbaycanda bədii parça istehsalı sənayesi geniş yayılmışdı. Nisbətən bəsit toxucu dəzgahlarında (çəhrə, iy) işləmələrinə baxmayaraq Azərbaycan sənətkarlarının saray emalatxanalarında ipək və yundan toxuduqları «ali» və «zərli» adlanan parçaları qızılı və gümüşü saplarla toxunduğu üçün dünya bazarlarında yüksək qiymətləndirilirdi. Azərbaycan parçaları texniki icrası və davamlı olması ilə yanaşı, yüksək bədii tərtibatına görə də seçilirdi. Belə ki, bu parçalar üzərində geniş çeşidli naxışlar, xüsusilə də Şərqin məşhur şairlərinin əsərlərindən obrazların təsvir edilməsi Azərbaycan parçalarına Venetsiya, Genuya, Hollandiya, İngiltərə, Fransa və Rusiyada böyük təlabat yaratmışdı. Parçalar üzərinə naxışlar toxunma, tikmə və başqa üsulları ilə həkk olunurdu.

Səfəvilər dövrü Azərbaycanda xalçaçılıq sənətinin ən zəngin dövrlərindəndir. Bu dövrdə Azərbaycan şəhərlərində daxili və xarici bazarlar üçün xalça toxunan xüsusi

karxanalar fəaliyyət göstərirdilər. Şirvan, Qarabağ, Gəncə, Qazax, Ərdəbil və Təbriz xalçaçılıq mərkəzləri sayılırdı. Ərdəbil və Təbriz xalçaları özünün bədii tərtibatı və ornamental xarakterinə görə xüsusilə seçilirdi. 1530-cu ildə Ərdəbildə Şeyx Səfi məscidi üçün toxunmuş və hazırda Nyu-Yorkun Metropoliten muzeyində saxlanılan xalça və 1539-cu ildə Təbrizdə həmin məscid üçün toxunan və Londonun Viktoriya və Albert muzeyində saxlanılan «Şeyx Səfi»adı ilə məşhur olan xalça Azərbaycan və dünya incəsənətinin şah əsərləridir. Eni 5, 34 metr, uzunluğu 10,51 metr, ümumi ölçüsü 56, 12 kvadrat metr olan «Şeyx Səfi» xalçası təbrizin ornamental xalçaları arasında xüsusi yer tutur.

XVI-XVII əsrlərdə Azərbaycanın Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Şamaxı, Bakı şəhərlərində bədii metal istehsalı yüksək inkişaf etmişdi. Azərbaycan sənətkarlarının hazırladıqları müxtəlif zərgərlik məmulatları, silahlar və zirehli geyimlər, məişət avadanlıqları texnoloci göstəriciləri və keyfiyyətinə görə dünya bazarlarında şöhrət qazanmışdı. Oruc bəy Bayatın yazdığına əsasən Azərbaycan istehsalı olan silahlar Moskva knyazlığında daha geniş yayılmışdı. Moskva knyazı Boris Qodunovun yaraq və əsləhələri içərisində Şamaxı sənətkarlarının istehsal etdiyi 8 dəbilqənin olması bunu bir daha təsdiq edir. Azərbaycan zərgərlərinin qızıl, gümüş, firuzə, yaqut və s. qiymətli metallardan hazırladıqları boyun, qol, barmaq, baş və libas bəzəkləri üzərində Qurani-Kərimdən, həmçinin Şərqin dahi şairlərinin əsərlərindən ibrətamiz parçalar da əks olunurdu.

Səfəvilər dövründə daş üzərində oyma sənəti də geniş inkişaf tapmışdı. Bu dövrün daş üzərində oyma sənəti ilə daha çox məzar daşlarında təsadüf olunur. Məzar daşları əsasən yonulmuş şaquli baş daşları (stella), üfiqi sənduqələr (sarkofaq), at və qoç fiqurlu heykəllər formalarında tərtib olunurdu. XVI-XVII əsrlərə aid məzar daşlarına Abşeron, Şirvan, Bərdə, Naxçıvan, Zəngəzur, Lerik, Gəncə və Qəbələ bölgələrində təsadüf olunur. Məzar daşları üzərində müxtəlif konfiqurasiyalı ornamentlərlə yanaşı, insan, heyvan, quş rəsmlərinə, bəzi hallarda isə sücetli kompozisiyalara da rast gəlmək mümkündür. Məzar daşları üzərindəki təsvirlər mərhumun peşəsi, cinsi, yaşı, dini inancları, dünyabaxışı və s. haqqında maraqlı məlumatlar verir. Sücetli oyma kompozisiyaları içərisində Zəngəzur bölgəsinin Urud kəndindəki qəbiristanlıqda yerləşən daş sənduqələr xüsusilə diqqətəlayiqdir. Daş qoç fiqurları Azərbaycan türklərinin yaşadıqları bütün tarixi-coğrafi areal üçün xarakterikdir. Belə fiqurlar Lerik, Gəncə, Ağdam, Laçın, Qazax və s. bölgələrlə yanaşı müasir Ermənistan və Gürcüstan ərazilərində də geniş yayılmışdır.

Zəngin təbii sərvətlərə malik olan Azərbaycanda nadir və qiymətli ağac növlərinin olması ağac üzərində oyma sənətinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Taxta

məmulatları üzərindəki bəzəklər əsasən oyma və şəbəkə üsulları ilə həyata keçirilirdi. Daha geniş yayılmış şəbəkə üsulunda kiçik taxta parçalarının bir-birinə bənd edilməsində mismar və yapışqandan istifadə olunmurdu. XVI-XVII əsrlərə aid ağac üzərində bəzək sənətinin ən nadir incilərinə nümunə olaraq Qusarın Həzrə kəndində Şeyx Cüneyd türbəsindəki sənduqəni və Gəncədə Cümə məscidinin minarəsini göstərmək olar.

XVI-XVII əsrlərdə Azərbaycan şəhərlərində keramika məhsullarının istehsalı dekorativ tətbiqi sənətin geniş yayılmış növlərincən idi. Bu dövrdə Azərbaycan sənətkarlarının hazırladıqları saxsı qablar və memarlıq abidələrinin bəzədilməsində istifadə edilən kaşı həm yerli, həm də xarici ölkələrin bazarlarında məşhur idi. Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Naxçıvan və Gəncə şəhərləri kaşı istehsalı mərkəzləri hesab edilirdi. Azərbaycan istehsalı olan kaşı məmulatları üzərində gül-çiçək, quş, heyvan və məişət əşyalarının təsviri verilmiş bəzəklər həkk olunurdu. Məscid, türbə, hamam, karvansara, saray və s. kimi ictimai binaların divar və tavanları göz oxşayan, rəngarəng kaşılarla bəzədilirdi. Osmanlı səyyahı Övliya Çələbi «Səyahətnamə»sində Təbriz şəhərinin memarlıq abidələrinin kaşıları haqqında maraqlı məlumatlar vermişdir. Kaşı bəzəklərinin bədii ornamental xüsusiyyətlərinə görə Şeyx Səfi memarlıq kompleksiçox zəngin idi. XVII əsrin sonundan etibarən Qərbi Avropa və Rusiyada çini və saxsı qab istehsalınınkütləvi xarakter alması Azərbaycanda keramika sənətinin məhdudlaşmasına təsir göstərmişdi.

**Kitabxana. Xəttatlıq.** Tarix böyu Azərbaycanda elm, bilik, kitab, kitabxana işinə böyük maraq və qayğı olmuşdur. Səfəvilər dövründə saray, məscid, mədrəsələrin nəzdində fəaliyyət göstərən kitabxanalarla yanaşı, ayrı-ayrı adamların şəxsi kitabxanaları da var idi. Əsası Uzun həsən dövründə qoyulan Təbriz saray kitabxanası Şah I İsmayılın dövründə daha da inkişaf etmişdi. Təbriz saray kitabxanasına Kəmaləddin Behzad, Sultan Məhəmməd kimi məşhur rəssamlar rəhbərlik etmişdi. Böyük emalatxananı xatırladan belə kitabxanalarda çoxlu sayda xəttatlar, rəssamlar, cildçilər fəaliyyət göstərirdi. 1555-ci ildə paytaxt Qəzvinə köçürülərkən Təbriz kitabxanasının əlyazmalarının bir qismi Ərdəbilin «Darülirşad» kitabxanasına verilmiş, bir qismi isə yeni paytaxta aparılmışdı.

Azərbaycanın məşhur kitabxanalarından biri də Şeyx Səfi vəqf kompleksində olan «Darülirşad» kitabxanası idi. 1637-ci ildə Darülirşadın kitablar saxlanılan «Cənnət sara» salonunda olmuş alman səyyahı A.Oleari yazır ki, kitablar perqamen və kağız üzərində gözəl xəttlə yazılmış, cildləri qızılı rəngli gül və yarpaqlarla bəzədilmişdi. Şah I Abbasın İsfahan saray kitabxanasında olan kitabların bir hissəsini «Darülirşad» a vəqf etməsindən sonra Ərdəbil kitabxanası daha da zənginləşmişdi. 1878-ci ildə çar Rusiyası Ərdəbili işğal

edərkən «Darülirşad» kitabxanası qarət edilərək, nadir əlyazmalar Sankt-Peterburq şəhərinə aparılmışdı. Tarixi mənbələrin məlumatına görə, Şirvanşahların da Şamaxı şəhərində zəngin kitabxanası olmuşdur.

Bu dövrdə zəngin şəxsi kitabxanalar da mövcud olmuşdur. Şah I İsmayılın oğlu Bəhram Mirzənin şəxsi kitabxanasını oğlu İbrahim Mirzə yeni kitablarla böyütmüşdü. Qaynaqların məlumatına əsasən onun kitabxanasında 3-4 min nüsxə əlyazma olmuşdur.

Çox təəssüf ki, Azərbaycan kitabxanalarının nadir əlyazmalarının çox hissəsi hazırda müxtəlif ölkələrdədir. Səfəvi-Osmanlı müharibələri zamanı Azərbaycan şəhərlərinin kitabxanaları qarət edilmiş, Osmanlı və Rusiya işğalları dövründə nadir kitablar Azərbaycandan aparılmışdır.

XVI-XVII əsrlərdə Azərbaycanda çap dəzgahı olmadığı üçün kitablar əllə yazılırdı. Şah I Abbas Avropadan çap makinəsi gətirməyə böyük səy göstərsə də, yalnız 1641-ci ildə İsfahana çap dəzgahı gətirilmiş, lakin bu dəzgahı işlətmək istəyi uğurlu olmamışdır. Buna görə də XVI-XVII əsrlərdə kitabların yazılması ilə gözəl xətləri olan mahir xəttatlar məşğul olurdu. Bu dövrdə əsasən dörd xətt- nəstəliq, süls, şikəstə və nəsx geniş yayılmışdı. Bu dövrün məşhur xəttatları içərisində Xoca Ətiq, Xacə Əlaəddin Mənsur, Qazi Abdulla, Mövlanə Məhəmməd Hüseyn, İsgəndər bəy Münşi, Mir Əbdülbağі Danişmənd, Mövlana Əlirza Təbrizi və başqaları xüsusilə məşhur idilər. Mahir xəttatlar adətən şah sarayının himayəsi və qayğısı ilə əhatə olunur, xüsusi ehtiram və şbhrət sahibləri sayılırdılar. Xəttatlar təkcə kitabların üzünü köçürməklə məşğul olmur, memarlıq abidələrinin üzərinə yazıları həkk etməklə də məşğul olurdular.